

# Böyük ömrün dastanı

**Səhnədə Ulu Öndərin böyük portreti qoyulmuşdur. S. Hacıbəylinin "Karvan" simfonik muğamının sədaları altında aparıcılar səhnəyə çıxır...**

I aparıcı:
*Ömrün şirin bir nəğmə,*
*Həyatın - tarix dərsi.*
*Belə ömür yaşamaq*
*Arzusudur hər kəsin.*
*Qoy bu tarix dərsini*
*Bütün cahan oxusun.*
*Azərbaycan dinləsin,*
*Azərbaycan oxusun!*
*Azərbaycan oxusun*
*Dastanlara sığmayan*
*Bir ömrün nəğməsini.*
*Azərbaycan oxusun*
*Bu ömrün 80 illik*
*Hünər səlnaməsini.*
*Azərbaycan dinləsin*
*Ulu haqqın səsini.*
II aparıcı:
*Bu səs sənin səsindi,*
*Səslənir qulağımda*
*Quran ayəsi kimi.*
*Bu səs sənin səsindi,*
*Oxuyur dodağımda*
*Zəfər nəğməsi kimi.*
*Bu səs sənin səsindi,*
*Titrədir salonları*
*Mərmi zərbəsi kimi.*
*Yenə səni dinləyir*
*Vətənin, elin sənin.*
*Hələ çiynimizdədir*
*Uğurlu əlin sənin!*
I aparıcı:
*Sən dağa arxalandın,*
*Dağ sənə arxa durdu.*
*Sən haqqa arxalandın,*
*Haqq sənə arxa durdu.*
*Sən xalqa arxalandın,*
*Xalq sənə arxa durdu.*
II aparıcı:
*Arxası dağ olanın*
*Gücü tükənməz dedin.*
*Arxası haqq olanın*
*Çırağı sönməz dedin.*
*Arxası xalq olanın*
*Bayrağı enməz dedin.*
*Yolumuza nur saçır*
*Ömür məşəlin sənin,*
*Hələ çiynimizdədir*
*Uğurlu əlin sənin!*
I aparıcı:
*Bu qurub - yaratdığın*
*Dövlət yaşadar səni.*
*Haqqını yaşatdığın*
*Millət yaşadar səni.*
*Pillə-pillə ucalıb,*
*Kərpic-kərpic qurduğun*
*Bu ölkə, bu məmləkət,*
*Məmləkət boyda sevgi,*
*Dünya dolusu şöhrət,*
*Hörmət yaşadar səni.*
II aparıcı:
*Sənsiz keçən günlərin*
*Hər ayında, günündə,*

***Hər kəsin həyatında,***
***Hər nəfərin ömründə***
***Görünür yerin sənin.***
***Qədirbilən xalqının***
***Səni sevən könlündə***
***Sağlığında ucalıb***
***Məğrur heykəlin sənin***
***Hələ çiynimizdədir***
***Uğurlu əlin sənin .***

*Mahnı.*

*"Məşəl kimi yanan ürək"*

I aparıcı:

XX əsrin ikinci onilliyinin üçüncü iliydi. İşıqlı may günlərinin birində qədim Naxçıvanda sadə bir azərbaycanlı ailəsində əqli, zəkası, zehni, idrakı, hökmü, qüdrəti və siyasəti ilə dünyanı mat qoyacaq bir bəşər övladı dünyaya gəldi.

II aparıcı:

Valideynləri ona Heydər adı verəndə hələ bilmirdilər ki, bu məsum körpə Şeyx Heydərdən də şöhrətli bir şəxsiyyət, bacarıqlı, qüdrətli sərkərdə olacaq.

I aparıcı:

Hələ ki, bacı-qardaşlarının əhatəsində ata qayğısı, ana məhəbbəti ilə buğum-buğum böyüyür, sonralar cahanların nəqşinə çevriləcəyi doğma Naxçıvanda ilk addımlarını atırdı. Sonra yaşıdlarına qoşulub məktəbə gedəcək, təhsil dalınca şəhərdən-şəhərə üz tutacaq, uğurlu səfərlərə yol başlayacaqdı.

II aparıcı:

Tükənməz daxili enerjisi, istedadı, biliyi və bacarığı sayəsində pillədən-pilləyə, rütbədən-rütbəyə, zirvədən-zirvəyə ucalacaqdı. Zaman keçdikcə bir evin, bir nəslin övladı olmaqdan öncə böyük bir xalqın, bir millətin övladı, ellər atası, milyonların babası olacaqdı.

I aparıcı:

Hələ ki, coşqun gənclik, qaynar tələbəlik illərini yaşayır, biliklərə yiyələnir, çətinliklərə qatlaşaraq həyat dərsi alırdı. Möhkəm iradəsi, çalışqanlığı, uzaqgörənliyi, qurub-yaratmaq eşqi onun uğurlarından xəbər verirdi.

*Mahnı.*

II aparıcı:

Xarakterindəki çeviklik, dərhal və düzgün qərar vermək bacarığı, ifadələrindəki dəqiqlik onu bəzilərinin həsədlə, bəzilərinin vahimə ilə xatırladığı DTK orqanına gətirib çıxardı.

I aparıcı:

Doğma Azərbaycanın tarixi keçmişinin öyrənilməsi və təbliği, mədəniyyətimizinin, incəsənətimizin, siyasətin inkişafını, elmin, sənayenin, kənd təsərrüfatının fürsətli yüksəlişini təmin etmək arzusu işlədiyi bütün vəzifələrdə onun həyat idealı olmuşdur. Yüksək vətənpərvərlik, güclü milli təəssüb hissi olan H. Əliyev hələ DTK orqanlarında işləyərkən onlarca azərbaycanlı ziyalını, yaradıcı insanı Sovet casuslarının təqibindən xilas etmişdi.

II aparıcı:

Məhz həmin xidmətin, sonralar H. Əliyevin daha yaxından kömək və qayğısının nəticəsi idi ki, Azərbaycan mədəniyyəti, incəsənəti və ədəbiyyatı 60-80 -ci illərdə öz inkişafının ən yüksək zirvəsinə gəlib çatmışdı.

I aparıcı:

Güclü xarakteri, yaradıcılıq enerjisi, daxili potensiyası H. Əliyevin daha böyük ideyaları gerçəkləşdirmək imkanlarından xəbər verirdi. Bütün bu keyfiyyətlər o zamankı İttifaq rəhbərliyinin nəzərindən qaçmadı. 1969-cu ildə H. Əliyevin Azərbaycan KP MK-nin birinci katibi vəzifəsinə təyin olundu. Bu təyinat Azərbaycan mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının, kənd təsərrüfatının, sənayesinin inkişafında inqilabi dönüş yaratdı.

II aparıcı:

Azərbaycan 12 il dalbadal beşillik plan və öhdəlikləri yerinə yetirdiyi üçün İttifaqın keçici Qırmızı bayrağına layiq görüldü. Kənd təsərrüfatının və sənayenin inkişafı yeni vüsət aldı. İqtisadiyyat öz inkişafının ən yüksək mərhələsinə qədəm qoydu.

I aparıcı:

Yüzlərlə fabrik, zavod və digər müəssisələr tikilib istifadəyə verildi. İttifaqın ən iri müəssisəsi Məişət Kondisionerləri zavodu məhz Bakıda inşa edildi. Elektrik lampaları zavodu, Boru Prokat zavodu, Metal Emalı zavodu, Sumqayıt Sintetik-kauçuk zavodu və onlarla belə böyük müəssisələr, univermaqlar, idarə və müəssisə binaları, yüzlərlə tədris ocaqları məhz H. Əliyevin təşəbbüsü və rəhbərliyi ilə tikilib istifadəyə verildi.

I aparıcı:

H. Əliyev Azərbaycanda kənd təsərrüfatının sürətli inkişafına nail oldu. Kolxoz və sovxozlarda müasir üslubda iri heyvandarlıq kompleksləri, quşçuluq fabrikləri tikilib istifadəyə verildi. Diqqətdən yayınmış Quşçuluq sənayesi inkişaf etdirildi. Pambıqçılıq, taxılçılıq, üzümçülük sahəsində İttifaq üzrə yüksək göstəricilər əldə edildi.

*Mahnı.*

II aparıcı:

H. Əliyevin rəhbərliyi dövründə pespublikamızda ədəbiyyat, incəsənət və memarlıq sahəsində də böyük nailiyyətlər əldə olundu, əzəmətli abidələr, möhtəşəm saraylar tikildi. Tarixi keçmişimizi, görkəmli sənət adamlarının həyat fəaliyyətini, müasirlərimizin quruculuq işlərini əks etdirən romanlar, povestlər, pyeslər, şeir və poemalar yazıldı, kino-filmlər çəkildi, bir-birindən gözəl nəğmələr, opera və baletlər, musiqili komediyalar yazıldı və səhnələşdirildi. Azərbaycan incəsənəti onun rəhbərliyi və qayğısı sayəsində öz inkişafının ən yüksək mərhələsinə qədəm qoymuşdu.

*Mahnı.*

I aparıcı:

1982-ci ildə H. Əliyev Sov İKP Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Sovetinin birinci müavini vəzifəsinə seçildi. H. Əliyevin bu uğuru bütün Azərbaycan xalqının uğuru idi. Bu uğurdan o zamanlar hələ bizə qardaş obrazında çıxış edən nankor qonşularımız ermənilərin nə qədər pojmürdə olduqlarını bir baxışdan hiss etmək çox da çətin deyildi.

II aparıcı:

Bəli, o zaman dünyaya meydan oxuyan bir dövlətin yüksək postlarından birində birinci şəxs azəbaycanlı oldu. Bu təyinat Azərbaycanın dünyanın siyasi arenasına çıxan ilk emblemi, ilk rəmzi imzası oldu.



I aparıcı:

Lakin az sonra İttifaq hakimiyyətinə gələn M.S. Qorbaçovun ermənipərəst mövqeyi nankor ermənilərin çoxillik torpaq iddialarını gerçəkləşdirməsinə meydan açdı. Qorbaçov Azərbaycana qarşı qərəzli hücumların qarşısını qətiyyətlə alan, ideya düşmənlərini kəsərli sözü, iti ağlı, dərin zəkası və sağlam məntiqi ilə asanlıqla geri oturdan H. Əliyevin simasında öz siyasi rəqibini görürdü. Ona görə də Qorbaçov səhhətində yaranmış naşazlığı bəhanə gətirərək H. Əliyevi istefaya göndərdi.

I aparıcı:

Vətənindən uzaqda olmasına baxmayaraq qəlbi Vətənin nəbzi ilə bir vuran H. Əliyev 20 yanvar faciəsində bütün təqiblərə, təzyiqlərə baxmayaraq İttifaq rəhbərliyinə öz etiraz səsini ucaltdı. Xalqın bu ağır günündə o, Moskvadakı Azərbaycan səfirliyinə gedərək törədilmiş faciənin məzmunu, miqyası və günahkarları barədə ilk bəyanat verdi və İttifaq rəhbərliyinə ittiham irəli sürərək bu qanlı qırğına etiraz əlaməti kimi Sov.İKP sıralarından çıxdığını elan etdi.

I aparıcı:

Həmin cəsarətli bəyanatdan sonra H. Əliyev ana yurdu Naxçıvana üz tutdu. O zaman blokada şəraitində yaşayan, vaxtaşırı erməni hücumlarına məruz qalan Naxçıvan Azərbaycandan tamamilə təcrid olunmuşdu. Həmin günlərdə Naxçıvan erməni işğalına Qarabağdan daha yaxın idi. Xalqın arzusu ilə Naxçıvana rəhbərlik edən H. Əliyevin uzaqgörənliyi, siyasi təcrübəsi, düşmən psixologiyasına dərindən bələd olması qanlı müharibəni dayandırdı.

II aparıcı:

Azərbaycan həmin illərdə demək olar ki, idarə olunmurdu. Hər tərəfdə xaos, anarxiya, qanunsuzluq hökm sürürdü. H.Əliyevin idarəçilik bacarığının, quruculuq fəaliyyətinin şahidi olan xalq 1993-cü ildə AXC-nin səriştəsizliyi ucbatından torpaqları işğal olunmuş, iqtisadiyyatı dağılmış, vətəndaş müharibəsi ilə üz-üzə qalmış Azərbaycanı dardan qurtarmaq üçün məhz ona - öz xilaskarına üz tutdu.

***Onu millət gözləyirdi,***
***xalq gözləyirdi-***
***Gəldi, Odlar Ölkəsinin***
***rəhbəri gəldi.***
***Ellər ondan sülh, ədalət,***
***haqq gözləyirdi,***
***Sülhün, haqqın, ədalətin***
***öndəri gəldi.***
***Bütün dünya tanıyırdı***
***o mərd insanı,***
***Gözlərində sökülürdü***
***vətənin danı.***
***Azərbaycan Ordusunun***
***Baş Komandanı***
***Azərbaycan millətinin***
***əsgəri gəldi.***

I aparıcı:

O gəldi. Dövlətçiliyimizi iflasdan, məhv olmaqdan, iqtisadiyyatımızı tənəzzüldən, respublikamızı parçalanmaqdan qorudu. Baş alıb gedən özbaşınalığın, dərəbəyliyin kökünü kəsdi, qanunsuz silahlı dəstələri zərərsizləşdirdi, qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını aldı. Sərhədlərimizdə uzunmüddətli atəşkəsə nail oldu.

II aparıcı:

Ölkə daxilində sabitlik bərpa edildi, sağlam işgüzar iqlim yarandı. Yaranmış sabitlik və sağlam iş şəraiti dünya investorlarının, xarici iş adamlarının diqqətini Azərbaycana yönəltdi və bu da öz növbəsində iqtisadiyyatımızın inkişafına təkan verdi.

I aparıcı:

H.Əliyev Neft sənayesinə xüsusi diqqət göstərirdi. Məhz onun təşəbbüsü ilə 1994-cü ilin sentyabrında vətənimizin paytaxtında dünyanın ən böyük dövlətlərinin iştirakı ilə əsrin ən böyük neft kontraktı imzalandı.

II aparıcı:

Bu gün artıq öz bəhrəsini verən, Azərbaycanın uğurlu sabahının, böyük gələcəyinin qarantı olan Bakı-Ceyhan Neft kəməri, Böyük İpək yolu layihəsi və bir sıra uğurlu layihələr məhz H. Əliyev dühasının böyük, uzaqgörən siyasəti və gərgin əməyi sayəsində gerçəkləşdirildi.

***Bir səməndər quşu oldun***
***cilvə çəkən oldun, Vətən,***
***Sən müsəlləh ər doğuldun,***
***çilə çəkən qadın-Vətən.***
***Sən vətənin övladısan,***
***sənin də övladın Vətən,***
***Arındıqca qarayla ağ,***
***nahaqla haqq bilinəcək,***
***Sənin yerin görünəcək !***
***Nə zaman ki, Azərbaycan***
***Təbrizinə, Zəncanına***
***qovuşacaq,***
***Nə zaman ki, qaçqınların***
***ata-baba ünvanına qovuşacaq,***
***Nə zaman ki, qisasımız haqq,***
***ədalət divanına qovuşacaq,***
***O gün Vətən başdan-başa***
***al qumaşa bürünəcək,***
***Sənin yerin görünəcək !***
***Nə zaman ki, İrəvandan,***
***Qarabağdan köç edəcək***
***xəyanət, şər,***
***Nə zaman ki, "Azərbaycan,***
***Azərbaycan" söyləyəcək***
***bütün bəşər,***
***Nə zaman ki, sənin böyük***
***abidəndən lent kəsəcək***
***körpə Heydər,***
***Arzuların vətənində***
***açıldıqca çiçək-çiçək,***
***Sənin yerin görünəcək !***
***Daim yeni zəfərlərə***
***səsləyəcək ruhun bizi,***
***Əməllərin ömrümüzü***
***bəzəyəcək, xoş xatirən***
***qəlbimizi,***
***Haqq, ədalət qarşısında***
***bükülən də namərd***
***düşmənlərin dizi,***
***Nə zaman ki, haylar,***
***yanlar dizin-dizin sürünəcək,***
***Sənin yerin görünəcək !***
***Milli Ordun bir müzəffər***
***yürüş ilə yurdları azad edəndə,***
***Oğulların Xocalını, Kəlbəcəri,***
***Laçını abad edəndə,***
***Bağladığın kontraktlar bəhrə***
***verib millətini şad edəndə,***
***Sən, ey ömrü bir ədəbi***
***məşəl kimi yanan ürək,***
***Sənin yerin görünəcək!***
***Sənin yerin görünəcək!..***

Ssenarinin və şeirlərin müəllifi:
● **D. MUSAYEVA,**
***Müşfiqabad mədəniyyət evinin metodisti***
Qaradağ rayonu